MahadSunnah

هيثم سرحان

أحكام المسح على الخفين

CORABA MƏSH ÇƏKMƏK

Azərbaycan dili

اللغة الأذرية

Şeyx Heysəm Sərhan

"Sünnə" tədris mərkəzinin rəhbəri

Tərcümə edən: İlqar Eyvazoğlu

ALSARHAAN.COM

MAHADSUNNAH.COM

Coraba məsh çəkməklə bağlı məsələlər

Uca Allah buyurur:

قال تعالى: ﴿مَا يُرِيدُ ٱللَّهُ لِيَجۡعَلَ عَلَيۡكُم مِّنۡ حَرَجٖ وَلَٰكِن يُرِيدُ لِيُطَهِّرَكُمۡ وَلِيُتِمَّ نِعۡمَتَهُۥ عَلَيۡكُمۡ لَعَلَّكُمۡ تَشۡكُرُونَ ٦﴾ [المَائِدَة : ٦]

“Allah sizi çətinliyə salmaq istəməz, lakin O sizi pak etmək və sizə olan nemətini tamamlamaq istər ki, bəlkə şükür edəsiniz.”[1]

Uca Allahın qullarına olan rəhmətindəndir ki, ayaqları yumaq əvəzinə, asanlıq olması üçün dəstəmazda xoflar və corablara məsh çəkməyə icazə vermişdir.

Bu bir dəfə sağ əllə sağ corabın üstünə, sol əllə isə sol corabın üstünə ayağın barmaqlarından başlayaraq baldırın əvvəlinə qədər barmaqlarını açaraq məsh çəkməkdir. İstər iki corabı birlikdə məsh etsin istərsə də birinci sağ ayağa sonra sol ayağa məsh etsin, bu məsələ genişdir.

Bir şərtlə ki, corab (və ya xof) nəcasətdən pak olsun və ayaqları topuqlarla birlikdə örtsün və kamil dəstəmazlı halda geyinsin.

[1] əl-Maidə surəsi, 6-cı ayə

Məshin müddəti: Yerli əhali üçün bir gün və bir gecə, müsafir üçün isə üç gün üç gecədir.

Bu müddətin hesablanması dəstəmaz pozulduqdan sonra birinci məsh etdikdə başlayır.

Məsələn, sübh namazı üçün dəstəmaz alıb corabını geyinsə, sonra səhər saat doqquzda dəstəmazını pozsa, saat on ikidə dəstəmaz alıb corabın üzərinə məsh etsə, bu müddətin hesabı saat doqquzdan yox, on ikidən başlayır.

Məsh kiçik hədəsdə (Dəstəmaz pozulanda) edilir. Böyük hədəsdə (qüsl pozulanda) isə tam qüsl almaq lazımdır.

Kim corablarını çıxararsa və ya məsh müddəti keçərsə, dəstəmazı, başqa bir pozan amillə pozulmadığı müddətcə səhihdir.

Yenidən məsh çəkmək istəsə, gərək əvvəlcə tam dəstəmaz alıb ayağını yusun, sonra corablarını geyinib əvvəlki şərtlərə əməl etsin.